# HEYDƏR ƏLİYEV - 100


Təhsil millətin gələcəyidir!
Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Xüsusi buraxılış

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı | 10 may 2023-cü il №18 (9026) | www.muallim.edu.az muallim@edu.gov.az


# ƏBƏDİYAŞAR LİDER

Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən AZƏRBAYCANLIYAM!

Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq.

Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır.

Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. İndiyə qədər yaranmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcəkdir.

Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun.

Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır.




Xoşbəxt adamam ki, ATA vəsiyyətini yerinə yetirdim ➪ Səh.2

Heydər Əliyevin müstəsna xidmətlərindən biri Azərbaycandan kənarda ali təhsilli kadrların hazırlanmasıdır ➪ Səh.4

İlk Prezident təqaüdçüləri ➪ Səh.6

Ümummilli Liderimiz və natiqlik məharəti ➪ Səh.7